**Qədim Azərbaycan torpağı olan Vedidə dünyaya göz açmış yazıçı Fərman Kərimzadə Qərbi Azərbaycanın, İrəvan xanlığının digər ərazilərinin və əhalisinin erməni nankorları tərəfindən hər cür müsibətlə, xəyanətlə üzləşməsinin acılarını öz həyat və yaradıcılığında yaşayanlardan idi.**

# Vedinin yanı dağlar...



İlk dəfə onu vaxtilə çalışdığım dövlət televiziyasının hərbi vətənpərvərlik redaksiyasında görmüşdüm. Şöbə müdiri, sonralar AzTV-nin sədri işləmiş həmyerlisi Babək Hüseynoğlunun və hərbi jurnalist Şəmistan Nəzirlinin yanına gəlmişdi. Diqqətəlayiq görkəmi, gur, ağarmış saçları, lopa bığları, başlıcası isə "elədüşməz" söhbətləri ilə bizi öz cazibəsinə çəkmişdi.

O zaman Fərman Kərimzadənin "Vedinin yanı dağlar" etnoqrafik eskizləri "Azərbaycan" jurnalında yenicə çap olunmuşdu. Əl-əl gəzən həmin jurnalda o, Vedi və vedililərlə bağlı ağrı dolu duyğu və düşüncələri təsirli bir dillə qələmə almışdı. Hər sətrindən məcburən tərk edilmiş ulu yurda böyük məhəbbət, ovunmaz həsrət boy göstərirdi. Həmin səfalı yerləri elə təsvir edirdi ki, sanki naturadan mənzərələr çəkən gözəl bir rəssamdır. 1951-ci ildə, 14 yaşında ikən Vedini tərk etməli olmuş gələcək yazıçının bu yerlərin başı üstündə dolaşan sərt tale tufanı barədə qeydləri onun yurd ağrısının tarixin dərinliklərindən rişələndiyini göstərirdi. (Yeri gəlmişkən, Fərman Kərimzadənin sözün birbaşa mənasında rəssamlığı da olub. Deportasiya üzündən gəlib məskunlaşdıqları Beyləqanda orta təhsilini başa çatdırdıqdan sonra o, Bakıda Ə.Əzimzadə adına Rəssamlıq məktəbində oxuyub. Geri qayıdınca məktəbdə müəllim işləyib, qəzet müxbiri olub. Hər zaman da fikrində-zikrində, canında, ruhunda Vedi ağrısı olub).

...1948-53-cü illərdə Qərbi Azərbaycandan deportasiya olunan soydaşlarımız qızmar aran rayonlarına, o cümlədən, Beyləqana gəliblər. Fərmanın yaxın qohum-əqrabası, qonum-qonşusu olan vedililərin əksəriyyəti yeni şəraitə alışa bilməyərək arandaca dünyalarını dəyişiblər. Qübar onun da ürəyində sağalmaz yara bağlayıb, amma hələ canı bərk olduğu üçün Fərman burada, necə deyərlər, ayaqda qala bilib.

***Vedinin yanı dağlar,***
***Ürəyi, canı dağlar.***
***Burda bir el var idi,***
***Siz deyin, hanı, dağlar?***

– deyərək sızlasa da, hər gecə yuxusunda o yerlərə "səyahət"ə yollansa da, 52 yaşına qədər dözüb durdu. Ondan o yana ürəyi ayrılıq möhnətinə, xiffətə tab gətirmədi.

Fərman Kərimzadə o yazıçılardandır ki, ciddi ədəbi əsərlər yaradıb, qəlbinin həsrət çırpıntılarını yüksək sənətkarlıqla şəkilləndirib. Tarixi mənbələrə əli çatmayan bizlər – o vaxtkı gənc oxucular onun qələmindən süzülmüş həqiqətlərin sayəsində hali olmuşuq ki, tutalım, Abbasqulu bəy Şadlinski necə özünün döyüşçü məharəti və ağıllı tədbirləri ilə iki il erməni generalları ilə vuruşub, vedililəri mühasirədən çıxararaq Cənubi Azərbaycana aparıb və ara sakitləşəndən sonra, 1921-ci ildə geriyə – doğma torpaqlara qaytarıb. Abbasqulu bəyin bu tarixi xidmətini yazıçı "Vedinin yanı dağlar" yazısında da detallı şəkildə qeyd edib.

Bu gün, Qərbi Azərbaycan mövzusunun gündəmdə olduğu bir vaxtda Fərman Kərimzadəni xatırlamağımız təsadüfi deyil. Bəlli həqiqətdir ki, millətin yurd həsrəti, doğma od-ocaq nisgili hər zaman və daha çox məhz qələm sahiblərinin yaradıcılığında öz əksini tapıb. Heç bir dövrün siyasi vara-vurdlarına baxmayaraq, yazıçı və şairlərimizin əsərlərindən bu mövzu ana xətt kimi keçib. Elə Fərman Kərimzadənin "Qarlı aşırım" kitabını götürək. Bu tarixi romanda müəllif öz qəhrəmanlarını "dönməz" bolşevik-kommunist obrazları yaratmaq istəyən bəzi qələmdaşlarından tam fərqli tərzdə təqdim edib. Hər bir obrazı sinfi mənsubiyyətindən asılı olmayaraq, məhz bəşəri, milli keyfiyyətlərinə görə dəyərləndirib və ustalıqla oxucuların idealına çevirə bilib. Abbasqulu bəy də, hətta onunla köhnə dostluğa dəyər verən Kərbəlayı İsmayıl da belə insanlardandır. Məncə, "Axırıncı aşırım" bədii filminə baxanlarda da bu qənaət güclüdür.

Fərman Kərimzadənin Şah İsmayıl Xətainin həyatından söz açan "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" dilogiyası 80-ci illərdə geniş oxucu auditoriyası toplamışdı. Bütün bunlarla yanaşı, Azərbaycana və azərbaycanlılara qarşı rus-fars-erməni xəyanəti yazıçını daim narahat edən mövzu olub. Onun sonuncu tarixi romanı – "Qoca qartalın ölümü"ndə də məşhur "Qarabağnamə"lərdən yaxşı mənada "su içmiş" tarixi həqiqətlər əks olunub. Qırmızı imperiyanın işğalçılıq siyasətini üstüörtülü bədii vasitələrlə ifşa edən yazıçı öz stixiyasına sadiq qalaraq, Cənubi və Qərbi Azəbaycanda baş vermiş haqsızlıqları məharətlə diqqətə çatdırıb.

Onun yazdıqlarının hər zaman sevimli əsərlərə çevrilməsinin bir səbəbi də hardansa, kimdənsə eşitdiklərini deyil, məhz özünün, öz nəslinin başına gəlmiş bəlaların ürəyində saldığı izləri kitablara çevirə bilməsidir. İmkanı düşdükcə Vediyə səfər edərək yad əllərdə olan dogma yurd-yuvanı ziyarət edib, görüb-duyduqlarını yaddaşının kitabına yazıb. Adları kütləvi şəkildə erməniləşdirilmiş Azərbaycan kəndlərini yadlaşan, uşaqlıqda qoyub getdiyi gur çeşmələri quruyan, qalın ormanları talalaşan halda gördükcə aram tapmayan ürəyi parça-parça olub ki, həsrət yüklü şedevrlər yaradıb. Arada hiss və həyəcanlarını misralara da çevirərək, ipə-sapa düzüb:

***Ağır elləri vardı,***
***Coşqun selləri vardı,***
***Pələng qolları vardı,***
***Bu çay niyə qurudu?..***

Məsəl var ki, su gələn arxa bir də gələr. O yerlərdəki qurumuş arxlarımıza da yenidən su gələcəyinə, çaylarımızın da daşıb-coşacağına, qayım-qədim obalarımızın, oymaqlarımızın da öz doğmalarına qucaq açacağına inamımız böyükdür.

Bax, onda unudulmaz Fərman Kərimzadənin də ruhu şad olacaq.

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"**